DOI: 10.36719/2663-4619/60/99-102

**Günay Şakir qızı Süleymanova**
gunayshakir83@gmail.com
Azərbaycan Dillər Universiteti

# İNGİLİS DİLİNİN TAPŞIRIQ-ƏSASLI TƏDRİSİNDƏ MÜƏLLİM VƏ TƏLƏBƏ ROLU

***Açar sözləri:*** *Dil tədrisi, metodlar, kommunikativ metodologiya, tapşırıq, tapşırıq-əsaslı tədris, dil öyrənilməsi*

## The role of teacher and student in the task-based approach in teaching English

**Summary**

This article investigates the different opportunities of the task-based approach in teaching target language. In this article the recent works on the task-based approach are shown with its advantages and appearances in detail.The role of teacher and student in the task-based approach is especially researched by giving some examples.
***Key words:*** *language teaching, methods, communicative methodology, task, task-based approach, language learning*

## Giriş

Bu məqalə, dil tədrisində metodlardan biri olan tapşırıq-əsaslı dil tədrisinin müxtəlif məqamlarını tədqiq edir. Məqalədə yaxın zamanlarda dilin tapşırıq-əsaslı tədrisində edilmiş çalışmalar hər tərəfli şəkildə incələnərək, bu metodda müəllim və tələbənin rolunun üstünlükləri və müxtəlif təzahürləri göstəriləcəkdir. Öncə dilin tapşırıq-əsaslı tədrisinin təbiəti və ünsiyyətdəki rolu müzakirə olunacaq. Daha sonra bu metodun təməl xüsusiyyətləri, müəllim və tələbə rolları əsas götürülərək tədqiq olunacaqdır.Sonda isə bu metodun üstünlükləri və qeyri-üstünlükləri müzakirə olunacaqdır.

Ənənəvi öyrənmədə (məs.qrammatik tərcümə,eşitmə-danışma) dil xaricilərə və ya ikinci dil öyrənənlərə qrup şəklində tədris olunur. Belə olduğu halda diqqət nöqtəsində dilin əsas özüdür, nəinki dilin daşıdığı hər hansı bir məlumat və ya onun istifadə tərzi deyil. Müəllimin məqsədi isə tələbələrinə yeni lüğəti və dilin qrammatik qaydalarını öyrətməkdir.

Lightbrown və Spadanın (1999) fikrinə əsasən isə dilin kommunikativ, tapşırıq-əsaslı öyrənilməsi əsas mərkəzdə qarşılıqlı əlaqəni, danışığı və məhz dilin istifadəsini nəzərdə tutur, nəinki dilin özünün öyrənilməsini. Dilin tapşırıq-əsaslı öyrənilməsi dil öyrənmənin bir metodudur ki, bura hədəf dili istifadə etməklə bildiyimiz tapşırığı etmək daxildir. [4]

Belə ki, təhsil davamlı olaraq inkişaf edir və müəllimlərə sinifdə yeni və ya fərqli metodlar təqdim edir. Hər hansı bir dili öyrənmək velosiped sürməyi və ya sörfü öyrənməyə oxşayır. Belə ki, riskə getmək üçün məsuliyyət və istək olmalıdır. Təcrübə ilə sən heç vaxt dili unutmayacaqsan, əlbəttə ki cəhd edəcəksən, səhvlər edəcəksən və onlardan öyrənəcəksən. Bunun üçün sən gözlərini mətn kitabınamı zilləməlisən?! Əlbəttə ki, xeyr. Çoxlu sayda qrammatik və lüğət nümunələrini yadda saxlamaq sənə əlbəttə kömək etməyəcək, nəinki sən onları real həyatda istifadə etməyə cəhd etməsən. Buna görə də müəllimlər tələbələrindən tapşırığı sinifdə birlikdə etməyi məsləhət bilirlər. Buna isə “tapşırıq-əsaslı öyrənmə” deyilir.

İngilis dilinin tapşırıq-əsaslı tədrisi dedikdə biz dilin tələbələr tərəfindən istifadəsini və onun daha mənalı tapşırıqlar vasitəsi ilə öyrənilməsini nəzərdə tuturuq. Belə tapşırıqlara həkimə getmək, kimdənsə müsahibə almaq və ya yardım xidmətinə zəng etmək aid ola bilər. Qiymətləndirmə ilk olaraq tapşırığın nəticəsinə əsaslanır, nəinki dil qaydalarının düzgünlüyünə. Bu tələbə inamına və DTƏT (Dilin Tapşırıq-Əsaslı Tədrisi) vasitəsi ilə hədəf dilin daha da səlis ifadəsinə səbəb olur. Belə ki, DTƏT Kommunikativ Dil Tədrisinin (KDT) bir sahəsi hesab edilə bilər.

DTƏT N.Prabhu tərəfindən Hindistan, Bongobredə işlədiyi zaman məhşurlaşmışdı (Harmer,2001). Prabhu müşahidə zamanı aydınlaşdırmışdır ki, onun tələbələri hədəf dili heç bir dil problemi olmadan asant yolla öyrənə bilirlər. Belə ki, onlar dilin özündən çox suallarına fikirlərini yönləndirmişdilər. (Prabhu, 1987). [3, p. 86] [5, 1987]

Bu mövzuda ən çox tədqiqat aparan alimlərə Teresa P.Pica, Martin East və Michael Long aiddir.

Nunan (2006) tapşırığı tələbələrin hədəf dili anlamalarını, idarə etmələrini və qarşılıqlı istifadələrini sinif işinin bir hissəsi hesab edərdi. Beləki, tələbələrin diqqəti əsasən mənanı ifadə etməkdən daha çox qrammatik biliyi göstərməyə meyl edirdi. [2,p.12-18]

Tapşırıq-əsaslı və komunikativ öyrənmədə müzakirə edilən mövzular ümumilikdə tələbəyə maraqlı gələn mövzulardır. Tapşırıq-əsaslı öyrənməyə tələbələrin sinif tapşırıqlarının sinifdən xaric situasiyalara oxşar tapşırıqlar daxildir.

Tapşırıqlar çətində ola bilər, məs. sinif qəzeti hazırlamaq və ya asant ola bilər, məs.otel qeydiyyatı kimi. [4,1999]

Brown (2001) tapşırıq-əsaslı quruluşda əsas maraqlı olan cəhətin dilin kiçik hissəcikləri deyil, onun təcrübi məqsədlər üçün istifadə olunmasını qeyd edir. [1,2001]

Müəllim və tələbənin hər ikisinin tapşırıq-əsaslı öyrənmədə müxtəlif rolları var. Geniş şəkildə Richards və Rogers (2001) müəllim və tələbələrin tapşırıq-əsaslı öyrənmədəki rollarını aydınlaşdırmışdır. [6, p. 235-236]

Müəllimin rolu:

- Tapşırıqların seçicisi və sıralayıcısı: müəllim tapşırıqları hazırlamaqda, qaydaya salmaqda və seçməkdə effektiv rola sahibdir. Sonra isə bu tapşırıqları tələbələrin ehtiyacları, maraqları və dil bacarıq səviyyələrinə görə formalaşdırır.
- Tələbələri tapşırıqlara hazırlamaq: Tələbələr üçün tapşırıqdan qabaq bəzi məşqlər vacibdir. Bu məşq çalışmalarına mövzuya giriş, tapşırıq quruluşunu təsvir etmək, tələbələrə tapşırığı asant etmək üçün lazımlı sözlər və frazeoloji birləşmələr öyrətməkdə kömək etmək daxildir.
- Məlumatlandırma: Müəllim tapşırıqdan əvvəl diqqət mərkəzləşdirici çalışmalar, verilən mətni öyrənmə, təyin edilmiş materialı istifadə etmə daxil olmaqla qarışıq üsullardan istifadə edir.

Tələbələrin rolu:

- Qrup iştirakçısı: Tələbələr tapşırıqları cüt və ya kiçik qruplar şəklində yerinə yetirirlər. Cüt və ya qrup şəklindəki iş individual və bütün sinifdə olan işlərə alışmış tələbələr üçün daha uyğun ola bilər.
- Müşahidəçi: tapşırıq-əsaslı öyrənmədə, tapşırıqlar öyrənməni daha asant etmək üçün istifadə edilir. Sinif çalışmaları tələbələrə dilin ünsiyyətdə necə istifadə olunduğunu müşahidə etmək şansı verməlidir. Tələbələr özləridə tək tapşırıq işindəki mesaja diqqət yetirməməlidirlər. Həmçinin də belə mesajların səciyyəvi olaraq işləndiyi formaya da diqqət yetirməlidirlər.
- Risk alan və yenilikçi: Bir çox tapşırıqlar tələbələrdən üstünlük təcrübəsi və linqvistik resurslardan korluq çəkən mesajları hazırlamaq və şərh etməyi tələb edir. İnkişaf etmək üçün linqvistik və kontekstiv açarları anlamaq, aydınlıq üçün soruşmaq və digər tələbələr ilə məsləhətləşmək bacarıqları lazımdır.

Son illərdə dərslərin daha çox effektiv olması üçün dərslərin quruluşu, planlalaşdırılması və yerinə yetirilməsi tərzi yanaşmalar üzərində müzakirələrlə inkişaf etmişdir. Bu elmi tədqiqat işi tapşırıq-əsaslı öyrənmə yanaşmasının (task-based learning-TBL) qısa nəzəriyyəsini təqdim edir və ənənəvi olan Hazırkı, Təcrübə, İstehsal (Present,Practice,Produce-PPP) yanaşması üzərində öz üstünlüklərini işıqlandırır. Bu elmi tədqiqat işi çalışma ilə də əlaqəlidir. Daha çox danışıq çalışmaları təcrübədən keçirilir. Məsələn, tapşırıq-əsaslı danışıq – bir gecə gəzintisinə getməyi planlamaq və s.

- Hazırkı Təcrübə İstehsalı(Present, Practice, Produce)
- PPP-ilə olan problemlər
- Tapşırıq-əsaslı yanaşma
- Tapşırıq-əsaslı yanaşmanın üstünlükləri
- Nəticə

Present Practice Produce (PPP)

Müəllimlər müxtəlif treyninq kurslarda PPP paradiqması ilə tanış olurlar. PPP dərsi aşağıdakı təzdə davam edir.

- Birinci, müəllim dil nümunəsini onun mənasını daha aydın kontekstdə əldə etmək üçün təqdim edir. Bu bir çox yol ilə ola bilər: mətn vasitəs ilə, situasiya ilə, dialoq və s.
- Tələbələrdən daha sonra təcrübə mərhələsini bitirmək xahiş olunur. Belə ki onlar verilmiş nümunələri xor və ya tək şəkildə təkrar edə bilərlər,boşluqları doldura bilərlər və ya cümlənin digər yarısını izləyə bilərlər.
- Nəticədə, tələbələrə rollarla ünsiyyət tapşırığı verilir və onlardan öyrəndikləri dildən istifadə etmək gözlənilir.

The problems with PPP

Bütün bunlar hamısı tamamilə məntiqi sayılır. Lakin bu metodu istifadə edən müəllimlər tezliklə onunla bağlı problemləri müəyyənləşdirəcəklər.

- Tələbələr yeni dili sinifdə düzgün istifadə etdikləri üçün yeni dillə daha rahat ünsiyyət qurmaq təəssüratı verə bilərlər. Buna baxmayaraq bir neçə dərs sonra tələbələr nə dili düzgün istifadə edə bilməyəcəklər hətta onu artıq istifadə etmək istəməyəcəklər.
- Tələbələr dili tez-tez istifadə edəcəklər lakin dil quruluşunu həddindən artıq istifadə etməyəcəklər. Belə ki o tamamilə qeyri-təbii səslənir.
- Tələbələr sərbəst təcrübə mərhələsində öyrəndikləri dili istifadə etməyə bilərlər. Çünki onlar tapşırığı yerinə yetirmək üçün əvvəlki dil resurslarından istifadə edə biləcəcəklərini düşünürlər.

Tapşırıq-əsaslı yanaşma(A task-based approach)

ÇƏY dil müəllimləri üçün alternativ təklif edir. Çalışma əsaslı dərsdə müəllim hansı dilin öyrədiləcəyini qabaqcadan təyin etmir. Dərs əsasən tapşırığın bitirilməsinə yönəlir. Dərs aşağıdakı kimi müəyyən mərhələlərdən keçir.

1. Tapşırıqdan əvvəl (Pre-task)

Müəllim mövzunu təqdim edir və tapşırığın bu mərhələsində tələbələrin nə edəcəkləri haqqında aydın quruluş verir. Bu mərhələyə əlavə olaraq tapşırığı edən insanların səsyazmalarını daxil etmək olar. Bu tələbələrə onlardan nə gözlənəcəyi haqqında aydın nümunə verir. Tələbələr qeydlər edə bilərlər və tapşırığı edərək vaxtlarını keçirə bilərlər.

2. Tapşırıq

Tələbələr tapşırığı cütlüklər və ya qrup şəklində dil resurslarından istifadə edərək yerinə yetirirlər. Belə ki, onların müəllim nəzarətçisi olur və onları həvəsləndirir.

3. Planlaşdırma

Tələbələr tapşırıqlar zamanı nəyin baş verdiyini sinifə yazılı və ya şifahi şəkildə qısa məruzə edirlər. Onlar daha sonra qruplarında nə deyəcəklərini hazırlayırlar. Eyni zamanda yarana biləcək hər hansı bir dil sualını aydınlaşdırmaq üçün müəllimdən kömək istəmək imkanı verilir.

4. Məruzə

Tələbələr daha sonra yazılı məruzəni şifahi və ya oxuyaraq sinifə təqdim edirlər.Müəllim öz məruzələrini təqdim edəcək tələbələrin sırasını müəyyən edir və mövzuyla bağlı bəzi tənqidləri tələbələrə bildirə bilər. Bu mərhələdə müəllim bundan əlavə müqayisə etmək üçün eyni tapşırığı edən tələbələrin səsyazmasını oxutdurur.

5. Təhlillər

Müəllim daha sonra yazılmış mətndən bir birinə uyğun hissələri təhlil etmək üçün tələbələrə izah edir. Müəllimlər bu mətn daxilində maraqlı xüsusiyyətləri qeyd etdiyi tələbələrdən xahiş edə bilərlər. Bundan əlavə müəllim tələbələrin təhlil üçün məruzə vaxtında istifadə etdikləri dili izləyə bilər.

6. Təcrübə

Nəticə olaraq, müəllim təcrübədən keçirmək üçün tələbələrin maraqlarına əsasən dilin hər hansı bir sahəsini seçir. Sonra isə tələbələr öz inamlarını artırmaq üçün təcrübi çalışmalar edirlər.

Tapşırıq-əsaslı öyrənmənin bəzi aydın üstünlükləri var:

- PPP (Presentation, Practice, Production) yanaşmasından fərqli olaraq, tələbələr dil nəzarətindən azaddırlar. Üç mərhələnin hamısında da onlar bütün dil resurslarından istifadə etməlidirlər, nəinki əvvəlcədən seçilmiş bir nümunəni təcrübədən keçirmək.
- Təbii kontekst şəxsiləşdirilmiş və özlərinə uyğunlaşdırılmış dil ilə tələbələrin təcrübələri ilə inkişaf etdirilir.
- Tələbələrin ehtiyaclarından doğan dil ortaya çıxır.Bu ehtiyac hər hansı bir müəllim və ya kurs kitabı tərəfindən müəyyən olunmuş çərçivədən daha çox dərsin nə ilə əhatə olunacağını göstərir.
- Bu yanaşma tələbələrin vaxtlarının çoxunun ünsiyyət qurmaqla keçirdiyi ciddi bir komunikativ yanaşmadır. PPP dərsləri müqayisədə daha çox müəllim ağırlıqlı görsənir. Sadəcə olaraq TƏÖ zamanı tələbələrin nə qədər vaxtlarını ünsiyyətdə keçirdiyini izləyin.
- Bu əyləncəli və həvəsləndiricidir.

## Nəticə

PPP dil öyrənmədə çox sadələşdirilmiş yanaşma təklif edir. Bu o fikrə əsaslanır ki, sən dili kiçik hissəciklər vasitəsi ilə bir dərsdən digərinə əlavə edərək, öyrənə bilərsən. Buna baxmayaraq, tədqiqat bizə göstərir ki tələbələrin nə öyrənəcəklərini qarantiyə almaq və ya qabaqcadan bilə bilmərik. Nəticə etibarilə,

dilin geniş kəşfi tələbələrin dili daha effektiv əldə etmələri üçün ən yaxşı qaranti yoludur.Onların təcrübələrini hədəf dilin tək tək hissəcikləri ilə hüdudlamaq qeyri-təbiidir.

## Nəticə

Bu məqalə, xarici dil tədrisində bir metod olan çalışma-əsaslı dil tədrisinin müxtəlif məqamlarını tədqiq edir. Məqalədə yaxın zamanlarda dilin çalışma-əsaslı tədrisində edilmiş çalışmalar hər tərəfli şəkildə incələnərək müəllim və tələbə rolunun üstünlükləri və müxtəlif təzahürləri göstərilib.

## Ədəbiyyat

1. Brown-2001 “Teaching by Principle and Interactive Approach to Pedagogy’’N4 Longman Inc.
2. David Nunan-2006 “Task-based language teaching in the Asia context: Defining ‘task’ Asian EFL Journal, 8(3), 12-18.
3. Harmer J.-2001, p.86 “The practice of English language teaching” London:Pearson Education Limited.
4. Lightbrow and Spada-1999 “How Languages are learned” New York; Oxford University Press second edition.
5. Prabhu N.S.-1987 “Second Language Pedagogy” Oxford University Press.
6. Richards and Rogers-2001, p.235-236 “Approaches and methods in language
7. teaching” London; Cambridge University Press.

**Rəyçi: dos. S.Tağıyeva**

Göndərilib: 17.11.2020 Qəbul edilib: 19.11.2020